**2000 ildən artıq bir tarixə malik Azərbaycan permanent dövlətçiliyinin təməlində duran rəmzlər sırasında Azərbaycan dövlət sikkəsi ən vacib, bəzi hallarda yeganə maddi dəlil və qaynaq rolunu oynayır.**



# Pullar silinməz tarixdir

**Qədim maddi-mədəniyyət abidələrinin böyük bir qismini çeşidli metallardan (əsasən qızıl, gümüş, misdən) kəsilmiş pullar - sikkələr təşkil edir. Sikkələrin tədqiqatı ilə məşğul olan elm numizmatika (yun.: - adət, qanun, sikkə) adlanır.**

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika və Epiqrafika Şöbəsinin Numizmatika Fondu respublikamızda numizmatik irsimizin qorunub saxlandığı yeganə elm mərkəzidir. Oxucularımıza muzeyin numizmatika və epiqrafika şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Əli Rəcəblinin söhbətlərini təqdim edirik.

Hər şeydən əvvəl iki numizmatik ifadə - pul və sikkə istilahları haqqında bir neçə kəlmə demək istəyirəm. Pulun tarixi ictimai-iqtisadi anlam, kateqoriya kimi çox uzaq zamanlardan, demək olar ki, tunc dönəmindən başladığı halda, pulun xüsusi növü - forması olan sikkə isə m.ö. VII yüzilin başlanğıcında meydana çıxmışdır. Lakin hər iki istilah əcnəbi mənşəli olub, eyni zaman və məkan mühitindən qaynaqlanır. Pul, Bizans imperiyasının mis pul vahidi "follis"in (lat: follis - pul kisəsi, köhnə metal, mis pul), Ərəb xilafətində də mis sikkələrin adı olaraq "fəls" kimi işlənməsi, daha sonra türk dünyasında, Türk-Altay dil qrupunun fonetikasına uyğun f-p dissimilyasiyası və son "s" səsinin düşməsi nəticəsində, "sikkə" isə (ərəb.: sikkətun - döymə, zərbetmə) eynilə dilimizin lüğət tərkibinə daxil olub vətəndaşlıq hüququ qazanmış istilahlardır.

İlk öncə qeyd edim ki, ümumiyyətlə, numizmatika elmi bir sıra elmlər kimi Qərbi Avropa renessansı dönəmində təşəkkül tapmış, XVIII - XIX əsrlərdə avstriyalı abbat-numizmat Josef Hilarius fon Eckel tərəfindən yunan numizmatikasının, rusiyalı akademik-şərqşünas Xristian Fren tərəfindən isə müsəlman numizmatikasının elmi əsasları qoyulmuşdur. Azərbaycan numizmatikası isə nisbətən daha gənc elmdir. Yüz il öncə Azərbaycanda nə bir sikkə kolleksiyası, nə də numizmat vardı. Azərbaycan sikkələri əcnəbi numizmatların nəzər-diqqətini cəlb etsə də, son zamanlaradək bu sahədə hökm sürən kolleksiyaçılıq ənənələri üzündən ciddi araşdırmalardan kənarda qalmışdı.

Azərbaycan Cümhuriyyətinin təsis etdiyi Azərbaycan Dövlət Universitetinə dəvət olunan xarici alim, mütəxəssislər sırasında 1919-cu ildə Tiflisdən Bakıya köçərək universitetdə mü-

hazirə oxumaqla yanaşı, yenicə yaradılmış İstiqlal Muzeyində işə başlayan məşhur numizmat-alim Yevgeni Aleksandroviç Paxomov bir neçə sikkədən ibarət numizmatika kabinəsi fondu təşkil etmiş və Azərbaycanda numizmatika elminin təməl daşını qoymuşdur. Tarix elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Y.Paxomov Azərbaycanda və Qafqazda aşkar olunan numizmatik abidələrin, özəlliklə sikkə dəfinələrinin toplanması, qeydə alınması və tədqiqi sahəsində misilsiz xidmətlər göstərmiş, numizmatika üzrə respublikada ilk aspirant kimi mənim və arxeologiya üzrə ilk azərbaycanlı qadın Güllü Əbilovanın namizədlik dissertasiyasının elmi rəhbəri olmuşdur.

Azərbaycan sikkələrinin toplanıb-saxlanıldığı, tədqiq, nəşr və nümayiş etdirildiyi respublikanın Numizmatik Tədqiqatlar Mərkəzində numizmatika fondunda 150 mindən çox sikkə və digər maddi- mədəniyyət abidəsi (möhür, medal, orden, nişan, kağız pul, marka) mühafizə olunur. Muzeyin eksponatlarının sayı isə 300 mindən çoxdur. Muzeyin numizmatika fondunda saxlanılan materiallar əsasında doktorluq, namizədlik dissertasiyaları yazılmış, kitab, albom, kataloq və məqalələr çap edilmişdir.

Numizmatika fondunun sikkə kolleksiyalarının əksəriyyəti Azərbaycanda monetar pul dövriyəsinin 2000 ildən artıq bir zaman kəsiyində Azərbaycan dövlətləri tərəfindən kəsilmiş, eləcə də Azərbaycan pul dövriyəsində işlənmiş xarici ölkə sikkələri təşkil edir, Numizmatika fondu əsasən respublika ərazisində tapılan pul-sikkə dəfinələri hesabına zənginləşir. Yeri gəlmişkən onu qeyd edim ki, hər il Azərbaycanda, akademik İ.Meşşaninovun təbirincə desək, "yeraltı muzeylər ölkəsində aşağı-yuxarı 10-15 dəfinə aşkar olunur."

Təəssüflər olsun ki, bu tapıntıların əksəriyyəti möhtəkirlərin təcavüzünə məruz qalır. Hər bir dəfinə son dərəcə qiymətli tarixi qaynaqdır. Hər hansı yeraltı sərvət kimi, dəfinələr də xalqa məxsus olub qorunmalı, qeydə alınmalı və tədqiq edilməlidir. Qocaman tarixin digər yardımçı sahələri (arxeologiya, etnoqrafiya, epiqrafika, tarixi coğrafiya və s.) ilə müqayisədə numizmatik faktlar dəqiqliyi və çoxşaxəli informasiya tutumuna malik olması ilə xüsusi önəm kəsb edir. Bu önəm ilk öncə sikkənin qanuni dövlət aktı olması ilə izah olunur. Digər tərəfdən sikkə mənsub olduğu dövlətin iqtisadi-siyasi durumunu termometrin civə sütununun amplitudası kimi əks etdirən qərəzsiz və əvəzolunmaz maddi dəlil və göstəricidir.

Sikkə ilk növbədə iqtisadi amil olub kəsildiyi metaldan asılı olaraq pulun çeşidli funksiyalarını icra etmişdir (gümüş sikkələr pulun bütün funksiyalarında - dəyər ölçüsü, dövriyə, tədiyə, yığım vasitəsi, dünya pulu kimi çıxış etdiyi halda, qızıl bəzi ekstradinar dönəmlər istisna olunmaqla əsasən yığım və dünya pulu funksiyasını, mis isə lokal dövriyə vasitəsi rolunu icra etmişdir). Daşıdığı funksiyalarından asılı olmayaraq qiymətli metallardan kəsilən sikkələrin çəki və əyarının dövriyə prosesində təbəddülata uğraması, daha aydın desək, bu göstəricilərin aşağı düşməsi dövlətin iqtisadi-siyasi həyatındakı dəyişikliklərdən və çətinliklərdən xəbər verir. Belə hallarda dövlətin öz maliyyə durumunu yaxşılaşdırmaq məqsədilə həyata keçirdiyi tədbirlərdən biri, bəlkə də birincisi sikkənin vəzn və əyarını azaltmaqla sikkə kəsimindən əlavə fiskal gəlir əldə etmək olmuşdur. Belə ki, bir sıra əski və ortaçağ dövlətlərin tarixi əksər hallarda yüksəkəyarlı və ağırçəkili sikkələr ilə başlayır, korlanmış sikkələr və... dövlətin çökməsi ilə başa çatır.

Sikkə eyni zamanda çox önəmli siyasi amildir (bəzi hallarda, məsələn, "işğal zərbi"ndə). Bu keyfiyyət sikkənin iqtisadi mahiyyətini də üstələyir. Sikkənin meydana çıxdığı ilk çağlardan (m.ö. VIII-VII əsrlər) sikkə zərbi hüququ (sikkə reqaliyası) ali hakimiyyət orqanlarına mənsub olmuş və suveren dövlət təmsilçilərinin (bazitevs, çar, şah, imperator və b.) adından icra olunmuşdur. Odur ki, ali hakimiyyətin əsas atributları (taxt, tac, möhür, bayraq və s.) sırasında sikkə ən önəmli dövlətçilik rəmzlərindən biri sayılmaqdadır.

Azərbaycan sikkəsi də istisna deyil. 2000 ildən artıq bir tarixə malik Azərbaycan permanent dövlətçiliyinin təməlində duran rəmzlər sırasında Azərbaycan dövlət sikkəsi ən vacib, bəzi hallarda yeganə maddi dəlil və qaynaq rolunu oynayır.

Sikkə qanuni dövlət aktı olub qanuni və suveren dövlət tərəfindən zərb olunurdu. Lakin müstəqil olmayan dövlətlərin də sikkələri məlumdur. Belə dövlətlər qızıl sikkə zərbi hüququna malik olmasalar da, iqtisadi tələbat müqabilində gümüş və mis sikkə kəsmək məcburiyyətində qalır, lakin bu halda sikkələr anonim, sikkə üzərində eponimin (hakimin) adı göstərilmədən kəsilirdi və hakimin qeyri-müstəqilliyindən xəbər verirdi. Belə bir durumla biz Teymurilərin himayəsi altında olan şirvanşah I İbrahimin (1382-1417), xələfi I Xəlilullahın (1417-1462) və XVIII - XIX əsrlərdə Azərbaycan xanlıqlarının sikkə kəsimində rastlaşırıq.

Azərbaycan Respublikası ərazisində təsadüf olunan ilk sikkələr Makedoniyalı İsgəndərin adından kəsilən gümüş tetradraxma və draxmalardır. Zəngin təbii sərvətlərə və böyük iqtisadi potensiala malik olan və antik dünyanın iki qütbünü - Yunan - Makedoniya və Yunan - Baktriya dövlətlərini birləşdirən Böyük İpək yolunun tam mərkəzində yerləşən antik Azərbaycanın (klassik Atropatena və Albaniya-Aranın) ellinist mədəni dünyası ilə sıx iqtisadi və siyasi əlaqələrinin nəticəsi olaraq Azərbaycana xarici ölkələrin - Frakiya, Afina, Selevkiya, Kappadokiya, Pont, Parfiya, Baktriya və s. dövlətlərin gümüş sikkə axını başlayır. Azərbaycan monetar pul dövriyyəsi sferasına daxil olur və tezliklə tarixi Azərbaycan ərazisində özəl sikkə zərbi həyata keçirilir.

Uyğun dönəmdə respublika ərazisində və yalnız son 100 ildə 10-dan çox antik sikkə dəfinəsi aşkar olunmuşdur. XVIII əsrin 50 - 60-cı illərində bir-birinin ardınca tapılan və hər biri 1000-dən çox sikkədən ibarət olan Xınıslı (Şamaxı bölgəsi) və Çuxur Qəbələ (Qəbələ bölgəsi) dəfinələri tərkibində (daha iki xırda dəfinə İsmayıllı və Lənkəran bölgələrində tapılmışdır) ilk dəfə xarici ölkə sikkələri ilə birlikdə yüzlərcə yerli alban gümüş sikkəsinə də təsadüf olunmuşdur. Bu sikkələr Makedoniyalı İsgəndərin bütün antik dünyada rəvac tapan və onun ölümündən sonra da emissiyaları davam etdirilən gümüş sikkələrinə bənzədilərək kəsilmişdir (bu növ təqlidi sikkə kəsimi bütün ellinist periferiyası - Orta Asiyadan tutmuş Britaniya adalarına qədər də səciyyəvidir).

Albaniya sikkə tapıntılarının topoqrafik özəllikləri, onlara başlıca olaraq Azərbaycanın quzeyində, Yaloylu təpə arxeoloji mədəniyyəti arealında təsadüf olunması, əksinə, qonşu ölkələrdə belə sikkələrə rast gəlinməməsi onların özəl alban sikkəsi olması və Albaniyanın paytaxtı Kabalaka (indiki Qəbələ) şəhərində zərb olunması haqqında heç bir şübhə doğurmur. Azərbaycan pul dövriyəsinin əsas komponentlərindən biri olaraq bu sikkələr, Albaniya haqqında ən məlumatlı bilginlərdən sayılan yunan coğrafiyaşünası Strabonun albanların sikkə ilə tanış olmaması və yalnız 100-ə qədər saya bildikləri haqda verdiyi bilgilərə rəğmən, məşhur coğrafiyaşünasdan öncə Albaniyada nəinki sikkə kəsiminin mövcud olması, həmçinin burada əmtəə-pul mübadiləsinin vüsət tapmasından, digər tərəfdən Azərbaycan dövlətçilik atributikasının ilkin örnəkləri olmaq dolayısı ilə Albaniyada ilk inzibati-iqtisadi və maliyyə institutlarının formalaşmasından xəbər verir.

Azərbaycanda əmtəə-pul mübadiləsinin yeni inkişaf mərhələsi ilkin feodalizmə xas olan durğunluq illərindən sonrakı əsrlərə - Sasanilər dönəminə təsadüf edir və Dərbənd - Beşbarmaq - Baş Qafqaz silsiləsi boyunca uzanan möhtəşəm müdafiə istehkamının qurulmasından sonra yaranmış nisbi əmin-amanlıq şəraitində nəzərə çarpan iqtisadi dirçəlişlə xarakterizə olunur. Azərbaycan şəhərlərindən Dərbənd, Bakı, Bərdə, Aran, Gilan, Naxçıvanda lokal zərbxanaların fəaliyyət göstərməsi respublika ərazisində tapılan gümüş dirhəmlərdən və qismən Bizans gümüş hersoqramlarından ibarət onlarca irili-xırdalı sikkə dəfinəsi, bu dəfinələrin tərkibindəki bir çox İranşəhr zərbxanasında kəsilmiş minlərlə sikkə təkcə Albaniyanın daxili iqtisadi durumunu və əmtəə-pul münasibətlərinin dinamik inkişafını əks etdirmir, həmçinin ölkənin çeşidli xarici əlaqələrinin araşdırılmasında, özəlliklə hələ antik çağlardan Məğriblə Məşriqi birləşdirən Böyük İpək yolunun tam mərkəzində yerləşən Azərbaycanın beynəlxalq ticarətdə tutduğu mövqeyinin açıqlanmasında çox dəyərli və təkzib olunmaz qaynaq rolunu oynayır.

Azərbaycanın xarici əlaqələrinin zirvə çağı bir qədər sonraya, xilafət dönəminə təsadüf edir və bunun da ən bariz göstəricisi pul-sikkə dəfinələridir. Məsələ burasındadır ki, VIII - IX əsrlərdə yeni yaranmış teokratik dünya imperiyası tərkibinə daxil olan Güney müsəlman ölkələri ilə Quzey məsihi dünyası arasında qızğın ticarət gedirdi. Bu ticarətin əsas ödəniş vasitəsi rolunu müsəlman ölkələrinin, o sıradan Azərbaycan dövlətlərinin - Şirvanşahlar, Sacilər, Salarilərin - gümüş dirhəmləri oynayırdı. Güney - Quzey beynəlxalq ticarət yolunun əsas qollarından biri Azərbaycandan - Dərbənddən keçirdi. Güney tacirlərinin dəvə karvanları ilə Quzeyə - Rusiyaya, Skandinaviyaya və Avropa ölkələrinə apardıqları külli miqdarda gümüş dirhəm, alınan malların müqabilində alış-veriş yerlərində qalır və geri qayıtmırdı. Quzey ölkələrində tez-tez aşkar olunan pul-sikkə dəfinələri (bəzən bu tapıntıların həcmi kilo və pudlarla ölçülür: XIX əsrdə bu ticarətin tranzit mərkəzi olan Kotland adasında (Baltik dənizində) gümüş dirhəmlərdən ibarət 400-ə yaxın dəfinə aşkarlanmışdır) bu beynəlxalq ticarətin hüdud və miqyasını təsəvvür

etmək üçün yetərincə imkan verir.

Valyuta metalının - gümüşün həddən ziyadə ixracı, digər tərəfdən Güney ölkələrində gümüş ehtiyatlarının tükənməsi pullu ticarətdə uzunmüddətli "gümüş böhranı" ilə sonuclandı. Beləliklə, XI - XIII əsrlərdə yoxa çıxmış gümüş, Ön Asiya ölkələrinin əmtəə-pul mübadiləsində, sikkə kəsimi və pul dövriyəsində Ərəb xilafətinin, Səlcuq sultanlarının qızıl dinarları və Bizans imperatorlarının qızıl nomismaları ilə, daxili dövriyə vasitəsi kimi isə Şirvanşahların, Azərbaycan Atabəyləri və onların vassallarının mis dirhəm və fəlsləri ilə əvəzləndi.

Bu böhranın iki ən əsas səbəbindən biri gümüş dirhəmlərin külli miqdarda xaricə daşınmasıdır ki, bu haqda indicə qeyd etdim. İkinci, bəlkə də həlledici səbəbi VIII - X əsrlərdə Ərəb xilafətinə daxil olan Əndəlüsdən Çin səddinə qədər uzanan ərazidə daxili konfessional və siyasi separatizmə, eləcə də xarici, ardı-arası kəsilməyən cihad savaşlarına rəğmən, islam dəyərləri sayəsində baş verən sürətli iqtisadi dirçəliş əmtəə-pul münasibətlərinin inkişafına güclü təkan verdi.

Təkcə onu demək kifayətdir ki, 200-dən çox zərbxana təsis olunub, milyonlarla gümüş dirhəm və qızıl dinar kəsilərək dövriyəyə buraxılırdı, Xəlifə Harun ər-Rəşid (785 - 809) illik gəlirini soruşanda, xəzinədar gəlirin 873 milyon dirhəm olduğunu söyləmiş, xəlifə isə bu gəlirin milyon-milyon olmasını arzuladığını bildirmişdi. Məğrib-Məşriq, əsasən Afrika-İran tranzit ticarətində hələ islamdan çox öncə böyük səriştəyə malik olan ərəblər - ticarətin hüquqi əsasları Qurani-Şərifdə də öz əksini tapmışdır - özəlliklə xarici ticarətə xüsusi diqqət yetirməklə, artıq qeyd etdiyimiz kimi, yüz illərlə davam edən Güney-Quzey beynəlxalq ticarətinin əsasını qoydular. Doğrudur, bu ticarət Güney ölkələri üçün passiv mahiyyət daşıyırdı - indiki bəzi inhisarçılar kimi, xaricə valyuta-gümüş aparılır, əvəzində çeşidli mallar idxal olunurdu.

Bununla yanaşı, yazılı qaynaqlardan göründüyü kimi, Gündoğan ölkələrində yeni şəhərlər salınır, əmtəə istehsalı, sənətkarlıq, ticarət inkişaf edirdi. Bu da dövriyə vasitələrinə - gümüş dirhəmlərə tələbatı artırırdı. Gümüşün ixracı və ona daxili tələbatın qat-qat artması arasındakı təzad məlum böhranın ikinci səbəbkarını yaratdı. Beləliklə, bu böhranı "məşum" yox, məşhur adlandırmaq daha düzgün olar. Çünki "böhran" ifadəsi xəstəliklə bağlıdırsa da, bu böhran, əslində, sağlamlığın, başqa sözlə, iqtisadi inkişafın təzahür forması olub gələcək möhtəşəm "müsəlman intibahı"nın maddi bazasının yaranmasında əsas amillərdən biri rolunu oynadı.

Sadaladığımız sikkə adlarından başqa, bədii və tarixi ədəbiyyatda dirhəm, dinar, daha öncə, antik dönəmdə draxma, tetradraxma kimi sikkə adlarına da tez-tez rast gəlinir. 700 il ərzində müsəlman ölkələrinin əsas pul vahidi rolunu oynayan gümüş dirhəmin XI -XIII əsrlərdə mis dirhəmlə əvəz olunmasına rəğmən, paradoksal görünsə də, onun statusu monqol istilası dönəmində bərpa olundu.

Qazan xanın (1295-1304) islahatlarından sonra yeni təsis olunmuş ümumdövlət sikkəsi - gümüş dirhəm (2,13 q) 50-dən çox Azərbaycan şəhərində, o sıradan yalnız sikkələr əsasında adları və qismən yerləri bəlli olan Alagöz, Babi, Bazar, Balıq, Bəm, Qarqar, Qaraağac, Qarabağ, Pol-i-Aras kimi şəhərlərdə və yazılı qaynaqlarda adları çəkilən, lakin koordinatları bilinməyən Gəştaşbi, Mahmudabad, Hunan, Ərəş, Zəyəm kimi ortaçağ Azərbaycan şəhər-zərbxanalarında kəsilirdi. Lakin Elxanilər və "Hülaki taxtının varisi" (S.Len. pul) - Cəlairilər dönəmində dirhəmin çəkisi bir qrama qədər düşdüyündən Topal Teymur (1370-1405) özünün nəhəng imperiyası üçün yeni pul vahidi - təngəni (6,2 q) qəbul etdi. Təngə tezliklə Teymurilərin nüfuz dairəsinə daxil olan ərazilərdə-Qaraqoyunlu, Ağqoyunlu, Şirvan (XIV-XVI əsrlərdə) dövlətlərində - əsas dövriyə vasitəsinə çevrildi.

Qüdrətli Azərbaycan Səfəvilər dövlətinin yaranması I Şah İsmayılın (1501 - 1524) yüksəkəyarlı və ağırçəkili (9,4 q) "şahi" sikkə vahidi ilə yad olundu. Səfəvi Şahı Məhəmməd Xudabəndinin (1576 - 1587) fərmanı ilə "məhəmmədi" (4,8 q), I Abbasın adı ilə "abbasi" (7,8 q) əsas sikkə nominalları zərb edilirdi. Sultan Nadirin (1736 - 1749) təsis etdiyi yeni sikkə vahidi "nadiri", Qarabağ xanlığının orijinal gümüş sikkəsi "pənabadi" adlanırdı.

**XV - XVI əsrlərdə Azərbaycan-türk sülalələrinin Azərbaycan və İranda yaratdıqları feodal dövlətlərində sikkə zərbi tarixinin numizmatika elminə bəxş etdiyi yeni milli pul vahidləri Azərbaycan dövlətçiliyinin danılmaz atributları kimi dilimizdə indi də yaşamaqdadır.**

**● R. İSMAYILOV**